# Düzgün strategiya, ardıcıl islahatlar

***Prezident İlham Əliyevin rəhbərliyi ilə son 18 il ərzində respublikamızda uzunmüddətli, düzgün strategiya nəticəsində dinamik yüksəlişə nail olunub. Cənab İlham Əliyevin Azərbaycana rəhbərliyinin bütün mərhələlərində sosial-iqtisadi islahatların həyata keçirilməsinə mühüm önəm verilib, uğurların davamlılığı üçün etibarlı zəmin yaradılıb. Təsadüfi deyildir ki, dünyada yaşanan ən ağır maliyyə böhranı və iqtisadi geriləmə şəraitində belə, dövlətimizin başçısının çevik, praqmatik siyasəti sayəsində ölkəmiz mənfi təsirləri neytrallaşdırıb, nəzərdə tutulan bütün proqramlar tam gerçəkləşdirilib. Bütün bu nailiyyətlər isə iqtisadiyyatın şaxələndirilməsi, neftdən asılılığın minimuma endirilməsi ilə bağlı layihələrin icrası nəticəsində əldə edilib.***



Azərbaycanın iqtisadi potensialının güclənməsi, reallaşdırılan diversifikasiya siyasəti, müasir texnologiyalara əsaslanan və rəqabətqabiliyyətli məhsul istehsal edən yüzlərlə müəssisənin fəaliyyətə başlaması təbii ki, ölkəmizin xarici iqtisadi əlaqələrində də müsbət meyillərə təkan verib. Belə ki, xarici iqtisadi əlaqələrin coğrafiyası genişlənib, ticarətin əmtəə srukturu təkmilləşib.

Azərbaycanın xarici iqtisadi əlaqələrinin genişlənməsində respublikamızın nəqliyyat infrastrukturunun müasir dünya standartlarına uyğunlaşdırılması, tranzit potensialının daha da artırılması önəmli rol oynayıb. Elə buna görə də həyata keçirilən tədbirlər və qlobal miqyaslı təşəbbüslər ölkəmizin sosial-iqtisadi inkişafına əsaslı töhfə verməklə, Azərbaycanı mühüm nəqliyyat qovşağına və dəhlizlərin keçdiyi məkana çevirib.

Son illər ərzində ölkəmizdə avtomobil yollarının və dəmir yolu xətlərinin, xüsusilə Gürcüstan, Rusiya və İran istiqamətində ölkə ərazisindən keçən magistral yolların beynəlxalq standartlar əsasında yenidən qurulması, Bakıda və regionlarda beynəlxalq hava limanlarının, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində gerçəkləşdirilən layihələr Azərbaycanın nəqliyyat infrastrukturunun inkişafına əhəmiyyətli təsir göstərməklə yanaşı, ölkəmizin tranzit potensialını daha da gücləndirib.

***(ardı 3-cü səhifədə)***

# Düzgün strategiya, ardıcıl islahatlar




***Azərbaycan uzun illər ərzində sabitlik yolu ilə gedir. Ölkəmizdə mövcud olan sabitlik Azərbaycan xalqının iradəsi ilə təmin edilir. Bizim apardığımız siyasət xalq tərəfindən dəstəklənir. Siyasət konkret işlərlə ölçülür. Bizim siyasətimizin təməlində konkret işlər, real inkişaf, söz yox, əməl dayanır və verilən hər bir söz həyatda öz əksini tapır.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

*(əvvəli 1-ci səhifədə)*

Beynəlxalq və regional təşkilatlarla aparılan ardıcıl iş də Azərbaycanın xarici iqtisadi əlaqələrinin genişlənməsinə müsbət təsir göstərib. Nəticədə ötən müddət ərzində Azərbaycanın BMT və onun qurumları, Avropa İttifaqı, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, eləcə də Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı və s. kimi nüfuzlu beynəlxalq institutlarla əlaqələri daha da möhkəmlənib.

Azərbaycanın hərtərəfli inkişafı, verilən hər bir vədin konkret əməli işdə öz təsdiqini tapması xalq-iqtidar birliyini daha da möhkəmləndirib, vətəndaşların Prezident İlham Əliyevin ətrafında sıx birləşməsini gerçəkləşdirib. Dövlət başçısının rəhbərliyi ilə reallaşdırılan mükəmməl iqtisadi strategiya nəticəsində islahatların davamlılığı təmin edilib, iqtisadi inkişaf daha da sürətlənib.

Ötən illər ərzində Azərbaycanın tərəqqisi ilə bağlı həyata keçirilən layihələr bir sıra siyasi dəyişikliklər və struktur yenilənmələri ilə müşayiət olunub. Bütün bunların fonunda isə respublikada siyasi transformasiya mühiti getdikcə şəffaflaşıb. Struktur və kadr islahatlarının davamlı xarakter alması özünü qabarıq büruzə verib. Eyni zamanda, beynəlxalq müşahidəçilər tərəfindən də yüksək qiymətləndirilən korrupsiya ilə mübarizə tədbirləri daha da gücləndirilib, bu istiqamətdə dövlət qurumlarının hər bir pilləsində şəffaflığın qorunması diqqət mərkəzində saxlanılıb.

Azərbaycan regionlarının dinamik inkişafı da daim diqqətdə saxlanılıb. Dövlətimizin başçısı bu məsələyə hər zaman mühüm önəm verib. Ölkə rəhbəri vaxtaşırı rayonlara səfər edib, yerlərdə investisiyaların qeyri-neft sektoruna, xüsusən də regionların inkişafına yönəldilməsi, əlverişli sahibkarlıq və biznes mühitinin formalaşdırılması, işsizlik probleminin həlli, bütün bunların nəticəsində isə əhalinin həyat şəraitinin yaxşılaşdırılması ilə maraqlanıb, qarşıya çıxan çətinliklərin aradan qaldırılması məqsədilə icra strukturlarına zəruri tapşırıq və tövsiyələrini çatdırıb.

İkinci Qarabağ müharibəsində Azərbaycan tarixi zəfərə nail olmaqla, haqqı, ədaləti, ərazi bütövlüyümüzü bərpa etməklə bölgədə yeni reallıqlar yaratdı. Başqa sözlə, xalqımızın parlaq, möhtəşəm qələbə qazanması ölkəmizin siyasi nüfuzunun, iqtisadi-hərbi qüdrətinin təsdiqinə çevrildi, eyni zamanda, regionumuzda tamamilə yeni geosiyasi və geoiqtisadi reallıqları şərtləndirdi. Bununla da Azərbaycan dünyada öz sözü, mövqeyi, müstəqil xarici siyasəti olan dövlət imicini daha da möhkəmləndirdi. Eyni zamanda, Vətən müharibəsində Azərbaycanın ədalətli mövqeyinin dost və qardaş ölkələr tərəfindən müdafiə edilməsi, siyasi və mənəvi dəstək göstərilməsi ölkəmizin yeni güc mərkəzləri və yeni ittifaqlara qoşulması zərurətini meydana çıxardı. Şübhəsiz ki, bu reallıq təhlükəsizlik və tərəfdaşlıq müstəvisində maraqların koordinasiya edilməsi və uzlaşdırılmasından irəli gəldi.

Bugünkü gerçəkliklər qalib ölkəmizin sözünün daha kəsərli olmasını, dost ölkələrin sayının günbəgün artmasını və beynəlxalq hüququn da onun yanında olmasını reallaşdırır, respublikamızı regionda sülhün, təhlükəsizliyin, açıq, konstruktiv, bərabərhüquqlu əməkdaşlığın, sözün əsl mənasında, qarantı kimi çıxış edən dövlət kimi tanıdır.

Hazırda düşmən tərəfindən dağıdılan, tar-mar edilən yaşayış sahələrimizdə genişmiqyaslı bərpa-quruculuq layihələri reallaşdırılır. Yüksək sürətlə aparılan tikinti işləri ilə Azərbaycan Vətən müharibəsində olduğu kimi, Qarabağın bərpasında da gücünü bütün dünyaya nümayiş etdirir.

Dövlətimizin başçısının rəhbərliyi ilə erməni barbarlığının qurbanı olan yaşayış sahələrində hazırda mühüm strateji obyektlər, müəssisələr işə salınır, yenilərinin təməli qoyulur, yüksək texnologiyaların tətbiqinə start verilir, Qarabağ və Şərqi Zəngəzur bölgəsinin "yaşıl enerji" zonasına çevrilməsi istiqamətində önəmli tədbirlər gerçəkləşdirilir. Bütün bunlar dövlətimizin başçısının qəsbkardan xilas olunan rayonlara səfərləri ilə öz təsdiqini tapır.

Azərbaycan Prezidenti İlham Əliyev yorulmaz fəaliyyətində bütün bunlarla bərabər, dünyada ciddi narahatlıq doğuran hadisələr, kəskin, ziddiyyətli dəyişikliklər fonunda qlobal öhdəliklərə, sülhə, əmin-amanlığa, humanizm dəyərlərinə sadiqliyini nümayiş etdirir, sülh və təhlükəsizliyin gerçəkləşdirilməsi istiqamətində çevik, konstruktiv siyasət yürüdür. Bu, dövlət başçımızın regionda sülhü və əməkdaşlığı təşviq etməsi barədə konkret mövqeyində də özünü aydın büruzə verir və bu istiqamətdə göstərdiyi bütün səylər dünyada yüksək dəyərləndirilir, beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənir.

Prezident İlham Əliyevin Vətən müharibəsində əldə edilən parlaq qələbədən sonra beynəlxalq ictimaiyyət tərəfindən qəbul olunan sülh gündəliyi, bu yöndə təşəbbüsləri hazırda Cənubi Qafqazda regional inkişaf üçün yeni imkanlar yaradıb. Ermənistan isə ölkəmizin sülh müqaviləsinin imzalanması üçün təklif etdiyi 5 prinsiplə razılaşıb və belə bir hal bu respublikanın Azərbaycanın sülh və əməkdaşlıq çağırışlarına müsbət cavab verməsini şərtləndirib. İşğalçı ölkə Azərbaycanın sülh çağırışına müsbət yanaşmadan başqa yolu qalmadığını, belə təqdirdə həm Cənubi Qafqazda sabitliyin uzunmüddətli və dayanıqlı olacağını, həm də xalqının düşdüyü sosial-iqtisadi böhrandan xilas ediləcəyini yaxşı anlayıb.

Bütün bunlar Azərbaycanın nə qədər sülhsevər bir ölkə olduğunu bir daha dünyaya nümayiş etdirir. Beləliklə, Azərbaycan bölgədə davamlı sülh və sabitliyin yaranması üçün təkcə təşəbbüslə çıxış etmir, eyni zamanda, bu məsələdə öz əməli töhfəsini verir. Respublikamız hazırda da bu istiqamətdə real addımlar atır və bölgənin yeni əməkdaşlıq formatının yaradılması məqsədilə infrastruktur layihələrinin, xüsusilə Zəngəzur dəhlizinin icrasını sürətləndirir.

Bütün dünya Prezident İlham Əliyevi sözünə, vədinə sadiq lider kimi tanıyır. Dövlətimizin başçısının qətiyyətini Ermənistan da yaxşı dərk edir. Ona görə də işğalçı ölkə sülh sazişinin imzalanmayacağı təqdirdə Azərbaycanın da Ermənistanın müstəqilliyinin tanınmayacağını dərindən dərk edir. Çünki İlham Əliyevin bir müddət bundan əvvəl Şuşadakı məlum bəyanatında məğlub ölkəyə ünvanlanan sonuncu mesajı bunu deməyə əsas verir: "Əgər Ermənistan təklif edilən 5 prinsip əsasında müzakirələrin keçirilməsini qəbul etməsə, onda Ermənistanın müstəqilliyini tanımadığımızı rəsmən elan edəcəyik. Ermənistan bunun nələrə gətirib çıxaracağını yaxşı başa düşməlidir. Bu, bəlkə də Ermənistanın son şansıdır!"

Azərbaycanın regionda yaratdığı reallıqlar qlobal miqyasda qəbul olunduğundan, ölkəmizin suveren hüquqlarına hörmət bəslənildiyindən, həmçinin Azərbaycan–Ermənistan münasibətlərinin normallaşması, davamlı sülhün əldə olunması prosesinə mövcud gerçəkliklər çərçivəsindən yanaşıldığından xəbər verir.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***